# Beynəlxalq konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər







**Dünən Bakıda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, öncə Azərbaycan Respublikası Milli Məclisi, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyası (MDB PA) və MDB PA-nın Assambleya Şurasının Katibliyinin Demokratiyanın, Parlamentarizminin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun Bakı filialının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçıları Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad ediblər, abidəsi önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər qoyulub.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.-2 iyun.- S.6.